

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 fevral 2026-cı il, cümə

№ 033 (7100)

Qiyməti 60 qəpik


## Cıdır düzündə də, Vaşinqtonda da...

# Qalib, əmin, rahat!

## Uğurlu, dinc və təhlükəsiz dünya naminə...




## Liderlər ABŞ-da




Bax səh. 2

## Sülh sazişi imzalanacaq, ölkə yalan ideoloji buxovdan xilas olacaq

Bax səh. 3

### 38 il əvvəlin bu günü...

Bir saxta qərarın tarixi və fəsadları

Bax səh. 4

### "Amnesty İnternational" təşkilatının gerçək üzü

Bax səh. 4

### İkinci neft bumuna keçid...

Bax səh. 5

### Borc Strategiyası üzrə strateji məqsədlərə nail olunub

Bax səh. 6

### Aİ Şərq sərhəddinə dəstəyi artırır...

Bax səh. 7

# Cıdır düzündə də, Vaşinqtonda da...




# Qalib, əmin, rahat!

## Uğurlu, dinc və təhlükəsiz dünya naminə...

## Liderlər ABŞ-da























Fevralın 19-da Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Sülh Şurasının ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.

Əvvəlcə birgə foto çəkdirildi.

ABŞ Prezidenti Donald Tramp tədbirdə çıxış edib.

Prezidentliyi dövründə 8 münaqişəyə son qoyduğunu deyən Donald Tramp vurğuladı ki, iki çox vacib ölkə arasında sülh əldə edib və bunu heç vaxt unutmayacaq. ABŞ Prezidenti Azərbaycan və Ermənistan liderlərinə regionda yaranan sülhə görə təşəkkür edərək dedi: "Orada sonda əyləşən cənabı (Prezident İlham Əliyevi - red.) görürük. O gülümsəyir. Siz 30 ildən sonra sülh şəraitində yaşamağı öyrənirsiniz, elə deyilmi? 30 il müharibə gedib və biz onun öhdəsindən gəldik. Sizə çox minnətdaram, əla iş gördünüz. Siz dostumsunuz, ofisimə gəldiniz, dediniz, mən 22 il, hətta 23 il mübarizə apardım. Bax, onunla. Onun həmkarı isə dedi: "Mən də yeddi ildir rəhbərəm. Onunla mübarizə aparmışam". Biz isə 24 saatın içərisində işi yerinə yetirdik. Çox yaxşı sülh alındı. Düşünürəm ki, onlar artıq dostdur. Mən bəlkə bunu söyləməli deyiləm. Fikrimcə, onlar artıq dostdur, elə deyilmi? Qalxın ayağa. Bunlar möhkəm iradəli insanlardır. Elə bilirsiniz asan idi? Yox, asan deyildi. İki sərt insandır, amma yaxşı insanlardır. Oval ofisdə idik. Onlar ikisi də gəldi. Biri otağın bir tərəfində, digəri o biri tərəfində. Masa arxasında iki gözəl oturacaq var idi. Biri otağın bir yerində, digəri başqa yerində. Dedim onlara bəlkə bir-birinizə yaxın gələsiniz. Onlar bir az tərəddüd etdilər. Otuz iki il idi bir-birilərini məhv edirdilər. Dedim, bir-birinizə yaxın dayanın. Bir saat keçdi və onlar yan-yana oturdular. Razılaşma əldə etdik. Bir-birinin əlini sıxdılar, imzaladılar. Biz iki mühüm ölkə ilə sülhün əldə olunmasına imkan yaratdıq, heç vaxt unutmaram. Yavaş başladılar, sonra isə qəti addımlar atdılar. Siz özünüzlə çox fərəhlənə bilərsiniz. Gözəl hadisədir. Təşəkkür edirəm. Baxın. Otuz iki il... Sağ olun, çox sağ olun".

### Donald Tramp: Sülh Şurası istənilən ölkəyə açıqdır

Prezident Donald Tramp iclas zamanı bildirib ki, Sülh Şurası istənilən ölkəyə açıqdır. O, ABŞ-nin Sülh Şurası üçün 10 milyard dollar ayıracağını açıqlayıb. "Sülh Şurası bu zaldan başlayaraq daha yaxşı bir gələcəyin necə qurulacağını göstərir", - deyə Tramp bildirib.

ABŞ Prezidenti vurğulayıb ki, BMT münaqişələrin həllində əvvəlkindən daha çox iştirak etməlidir.

O, həmçinin ABŞ-nin BMT ilə çox yaxından işləyəcəyini söyləyib. "Bir gün mən burada olmayacağam. Düşünürəm ki, BMT daha güclü olacaq. Sülh Şurası demək olar ki, BMT-yə nəzarət edəcək və onun düzgün işləməsini təmin edəcək", - deyə o bildirib.

### Cey. Di. Vens: Siz əla liderlik nümayiş etdirdiniz

Tərəfdaşlığınıza görə, xüsusən də keçən həftə görüşdüyüm Azərbaycan Prezidentinə və Ermənistan Baş nazirinə minnətdarıq. Bu sözləri isə ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vens Sülh Şurasının Vaşinqtonda keçirilən ilk iclasında deyib.

"Sülhü mümkün etdiyiniz və əsl liderliyin nələrə nail ola biləcəyini göstərdiyiniz üçün hər birinizə təşəkkür edirəm. Silahları, ölümləri və dağıntıları kənara qoyub xalqınıza və rifaha sərmayə qoyduğunuz zaman bu, böyük işlərə yol açır. Buna görə, etdiyiniz işlərə görə hər ikinizə təşəkkürümü bildirirəm. Düşünürəm ki, siz əla liderlik nümayiş etdirdiniz", - deyə Vens əlavə edib.

ABŞ-nin vitse-prezidenti Cey. Di. Vens Cənubi Qafqazda sülhün əldə edilməsi istiqamətindəki səylərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistanın Baş naziri Nikol Paşinyana təşəkkür edib.

### Sülh Şurasının qətnaməsi yekdilliklə qəbul edilib

ABŞ Prezidenti Donald Tramp Sülh Şurasının sədri olaraq şuranın qətnaməsini imzalayıb.

Sülh Şurasının üzvləri şuranın fəaliyyətini təmin edəcək maliyyə bütövlüyü və şəffaflıq prinsiplərini müəyyənləşdirən qətnaməyə səs veriblər. Qətnamə yekdilliklə qəbul edilib.

Daha sonra liderlər ianə toplama öhdəliklərinə imza atan Donald Trampa qoşulublar.

Yekdilliklə qəbul edilən qətnamə Şuranın işinə rəhbərlik edəcək maliyyə bütövlüyü və şəffaflıq prinsiplərini müəyyən edir.

Prezident Tramp, sədr kimi, Şuranın kvorumunun iştirakı ilə qətnaməni imzalayıb: "İnanıram ki, bu, karyeramızda bəlkə də ən vacib günlərdən biridir. Biz Qəzzada nizam-intizam yaradacağıq, onu uğurlu, dinc və təhlükəsiz edəcəyik. Bəlkə də daha da irəli gedib dünyanın qaynar nöqtələrinə diqqət yetirəcəyik - bunun öhdəsindən asanlıqla gələ bilərik. Bu, güclü və parlaq insanların fantastik bir qrupudu. Qəzzanı uğur, təhlükəsizlik və birlik nümunəsinə çevirəcəyik", - Tramp görüşün sonunda deyib.

ABŞ prezidenti əlavə edib ki, BMT-nin böyük potensialı mövcuddur, lakin bu təşkilatın əhəmiyyətli dəstəyə ehtiyacı var: "Düşünürəm ki, bunu tezliklə etməyə başlayacağıq. Biz bu iş üzərində qətiyyətlə çalışacağıq və üzərində işləyəcəyik".

***

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 19-da Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclası çərçivəsində tədbirə qatılan bir sıra dövlətlərin liderləri və rəsmi şəxslərlə ayaqüstü görüşüb.



# Sülh sazişi imzalanacaq, ölkə yalan ideoloji buxovdan xilas olacaq

Ermənistanın 200 illik işğalçılıq və təcavüzkarlıq niyyəti ötən əsrin sonlarında yenidən qabarıq şəkildə üzə çıxdı. SSRİ-nin süqutu ərəfəsində regionda yaranmış geosiyasi boşluqdan istifadə edən Ermənistan Azərbaycana qarşı açıq ərazi iddiaları ilə çıxış etdi və bu iddiaları hərbi təcavüz siyasəti ilə davam etdirdi.

## Ermənistan Konstitusiyanı dəyişməklə...

Nəticə etibarı ilə 1990-cı illərin əvvəllərindən etibarən həyata keçirilən işğalçı strategiya Cənubi Qafqazı uzun bir zaman kəsiyində davam edən qeyri-sabitlik zonasına çevirdi. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı yalnız iki dövlət arasında münaqişə yaratmadı, həm də bütövlükdə regionun iqtisadi, siyasi və təhlükəsizlik arxitekturasını sarsıtdı. Ermənistan rəhbərliyi qısa müddətli hərbi üstünlüyü strateji qələbə kimi təqdim etməyə çalışsa da, zaman göstərdi ki, bu siyasət ilk növbədə elə Ermənistanın özünü dərin böhranla üz-üzə qoydu.

## İrəvan üçün acınacaqlı nəticə...

Bəli, 30 illik nəticə subut edir ki, yürüdülən işğalçı siyasət Ermənistana daha çox ziyan vurdu - ilk növbədə işğal faktı beynəlxalq hüquq müstəvisində öz təsdiqini tapdı və Ermənistan müstəqilliyini qazanmamış “işğalçı” adını qazandı. Xüsusilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 822, 853, 874 və 884 saylı qətnamələr Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyərək erməni silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin bu sənədlərin icra olunmaması münaqişəni “dondurulmuş” vəziyyətdə saxladı və faktiki olaraq Ermənistan özü-özünə ikinci pisliyi etdi - uzunmüddətli əsaslı blokada, iqtisadi təcrid və regional layihələrdən kənarda qalmaq reallığı ilə üzləşdi.

Otuz illik zaman fasiləsindən geriyə boylananda İrəvanın “qazancının” nə olduğu açıq görünür - bu siyasət nəticəsində Ermənistan iqtisadi baxımdan zəiflədi, investisiya cəlbediciliyini itirdi və demoqrafik geriləmə ilə üzləşdi. Kütləvi miqrasiya, işsizlik və sosial problemlər ölkənin daxili sabitliyini də sarsıtdı. Dövlət büdcəsinin formalaşdırılmasında xarici ianələrin və diaspor dəstəyinin xüsusi çəkisi artdı, bir sıra strateji obyektlər və infrastruktur sahələri xarici subyektlərin nəzarətinə keçdi. Beləliklə, müstəqil dövlətçilik iddiası ilə çıxış edən Ermənistan reallıqda siyasi və iqtisadi baxımdan asılılıq vəziyyətinə düşdü. İşğal siyasəti ilə qazanıldığı düşünülən üstünlük, əslində, uzunmüddətli perspektivdə dövlətin inkişafını ləngidən əsas faktora çevrildi.

Bu mənzərə göstərir ki, münaqişə təkcə Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüz aktı deyildi, həm də Ermənistanın gələcəyini risk altına alan strateji səhv idi. Dövlətin gələcək inkişaf trayektoriyası, sərhədlərinin hüquqi cəhətdən müəyyənləşdirilməsi və beynəlxalq münasibətlər sistemində tamhüquqlu subyekt kimi mövqelənməsi məhz bu yanlış siyasətin girovuna çevrilmişdi.

## Kilsə ideologiyası və siyasi manipulyasiya yalan tarix “əsirliyində”

Ermənistan tərəfindən seçilmiş konfrontasiya xəttinin formalaşmasında dini-milli ideologiyanın xüsusi rolu olmuşdu. Xüsusilə Erməni Apostol Kilsəsi ictimai rəyə təsir imkanlarından istifadə edərək tarixə selektiv və ideoloji yanaşmanı təşviq edirdi. Kilsə strukturları və onlarla paralel fəaliyyət göstərən siyasi dairələr “tarixi ədalətin bərpası” şüarı altında ərazi iddialarını mənəvi əsas kimi təqdim etməyə çalışırdılar. Halbuki bu yanaşma regionda davamlı sülhə deyil, yeni qarşıdurma ocaqlarının yaranmasına xidmət edirdi.

Bu ideoloji xətt xarici maraq mərkəzlərinin də təsiri ilə daha da radikallaşdı. Müxtəlif lobbi qruplarının informasiya və maliyyə dəstəyi sayəsində beynəlxalq ictimai rəyə təsir göstərmək cəhdləri genişləndirildi. Tarixin siyasiləşdirilməsi, mifoloji təsəvvürlərin dövlət siyasəti səviyyəsinə qaldırılması cəmiyyət daxilində də tənqidi düşüncəni zəiflətdi. Alternativ baxışlar ya susdurulur, ya da “xəyanət” kimi qələmə verilirdi. Nəticədə rasional dövlət quruculuğu prinsipləri emosional və romantik şüarlarla, yalanlarla əvəz olundu. İşğal siyasətinin davam etdirilməsi ölkə daxilində hərbiləşmiş psixologiyanın möhkəmlənməsinə gətirib çıxardı. Onsuz da minimal səviyyədə olan resurslar sosial iqtisadi modernizasiyaya yönəldilmədi - Ermənistanı “çətiri” altında saxlayan ölkələr bu minimal gəliri belə onların əllərindən alaraq qarşılığında köhnə silah arsenalını onlara təqdim etdi. İşğalçı siyasət uzunmüddətli perspektivdə iqtisadi artımı ləngitdi və Ermənistanı regional layihələrdən kənarda qoydu. Halbuki həmin dövrdə qonşu ölkələr enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığı genişləndirərək inteqrasiya proseslərini gücləndirirdilər.

Beləliklə, “kilsə ideologiyası” kimi xarakterizə olunan yanaşma dövlətin strateji qərarlarına emosional çalar verdi və praqmatik siyasətin formalaşmasına mane oldu. Ətrafında yerləşən dövlətlərə qarşı saxta torpaq iddiaları sürməklə özünü ön plana çıxarmaq istəyi Ermənistanı rasional düşüncədən kənarda saxladı. Tarixi narrativlərin manipulyasiyası üzərində qurulan ideoloji xətt cəmiyyətin real sosial-iqtisadi problemlərini kölgədə saxladı. Bu isə Ermənistanın inkişaf potensialını məhdudlaşdırdı və onu regionda davamlı risk faktoruna çevirdi.

## Sülhün əldə olunması üçün...

2020-ci ildə baş vermiş 44 günlük müharibə regionda tamamilə yeni siyasi və hüquqi reallıq yaratdı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə beynəlxalq hüququn prinsiplərini təmin etdi və uzun illər davam edən status-kvoya son qoydu. Bu hadisə təkcə hərbi qələbə deyildi; eyni zamanda, regionda sülh gündəliyinin formalaşması üçün yeni imkanlar açdı. Ermənistan üçün isə bu, uzun illər davam edən işğal siyasətinin iflasının, kapitulyasiyanın rəsmiləşməsi idi.

Müharibədən sonrakı mərhələdə sülh müqaviləsinin imzalanması məsələsi əsas gündəmə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq platformalarda, o cümlədən Munxen Təhlükəsizlik Konfransı çərçivəsində çıxışlarında qeyd edib ki, davamlı sülh həm regionun təhlükəsizliyi, həm də iqtisadi inkişafı üçün əsas şərtdir. Bu yanaşma Ermənistan üçün də alternativsiz seçim kimi görünür. Çünki uzunmüddətli blokada şəraitində qalmaq və ya regional əməkdaşlığa qoşulmaq arasında seçim artıq strateji xarakter daşıyır.

Sülh müqaviləsinin imzalanması Ermənistanın beynəlxalq hüquq subyekti kimi sərhədlərinin qarşılıqlı şəkildə tanınmasını təmin edə bilər. Bu isə ölkənin siyasi sabitliyinə və iqtisadi inkişafına müsbət təsir göstərəcək amildir. Regional kommunikasiya xətlərinin açılması, nəqliyyat və ticarət əlaqələrinin bərpası Ermənistan üçün yeni iqtisadi imkanlar yarada bilər. Əks halda, konfrontasiya siyasətinin davamı ölkəni yenidən təcrid vəziyyətinə sala bilər.

**Sülh müqaviləsinin imzalanması Ermənistanın beynəlxalq hüquq subyekti kimi sərhədlərinin qarşılıqlı şəkildə tanınmasını təmin edə bilər. Bu isə ölkənin siyasi sabitliyinə və iqtisadi inkişafına müsbət təsir göstərəcək amildir. Regional kommunikasiya xətlərinin açılması, nəqliyyat və ticarət əlaqələrinin bərpası Ermənistan üçün yeni iqtisadi imkanlar yarada bilər. Əks halda, konfrontasiya siyasətinin davamı ölkəni yenidən təcrid vəziyyətinə sala bilər.**

Beləliklə, 2020-ci il müharibəsi Ermənistan üçün həm də dönüş nöqtəsi oldu. Bu dönüş ya reallıqları qəbul edib praqmatik siyasət yürütmək, ya da keçmişin stereotiplərinə bağlı qalmaq arasında seçim deməkdir. Mövcud geosiyasi şərait göstərir ki, davamlı inkişaf yalnız qarşılıqlı tanınma və əməkdaşlıq mühitində mümkündür.

## Konstitusiya dəyişikliyi və ideoloji transformasiya

Sülh prosesinin dərinləşməsi üçün Ermənistanın hüquqi bazasında dəyişikliklərin aparılması məsələsi xüsusi əhəmiyyət daşıyır. Mövcud konstitusiyanın preambulasında yer alan və Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən müddəalar regional sabitlik baxımından ziddiyyət yaradır. Bu müddəaların qalması Ermənistanın rəsmi sənədində potensial münaqişə mənbəyinin saxlanılması deməkdir. Buna görə də konstitusion dəyişikliklər sülh sazişinin hüquqi təminatı kimi qiymətləndirilir. Prezident İlham Əliyev Münxendə “France 24” telekanalına müsahibəsində bildirmişdi ki, “Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da “qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir” məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq”.

Beləliklə, Ermənistan sülh istəyirsə bu sülh üçün zəruri addımı atmalıdır...

**İlham Əliyev: Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da “qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir” məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq.**

## Ermənistan üçün xilas planı...

Sülhün imzalanması isə Ermənistanda həm də illərlə ziyanlı təbilğatla doldurulmuş yalan ideologiyanı sıradan çıxaracaq. Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan da son illərdə ideoloji transformasiya zərurətinə toxunaraq “Real Ermənistan” konsepsiyasını irəli sürüb. Onun təqdim etdiyi yanaşma tarix mərkəzli emosional ideologiyadan praqmatik dövlətçilik modelinə keçidi nəzərdə tutur. Bu konsepsiyada suverenlik, təhlükəsizlik, iqtisadi inkişaf və vətəndaş məsuliyyəti prioritet kimi göstərilir. Dövlət anlayışının mifoloji təsəvvürlərdən deyil, beynəlxalq hüquq və real sərhədlərdən qaynaqlandığı vurğulanır. Başqa sözlə, ətraf dövlətlərə qarşı yalan iddiaların heç bir nəticə vermədiyi təsdiqlənir.

Beləliklə, Konstitusiyanın dəyişdirilməsi Ermənistan üçün yalnız hüquqi akt deyil, həm də psixoloji və ideoloji dönüş deməkdir. Bu dəyişiklik ölkəni uzun illər daxili və xarici siyasətdə məhdudlaşdıran narrativlərdən uzaqlaşdıra bilər. Eyni zamanda, Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşmasına töhfə verə bilər. Konstitusiya dəyişikliyi və ardınca sülh müqaviləsinin imzalanması Ermənistan üçün yeni inkişaf mərhələsinin başlanğıcı ola bilər. Bu addım ölkəni ideoloji buxovlardan azad edərək real dövlətçilik prinsiplərinə əsaslanan siyasətə yaxınlaşdıra bilər. Regional kommunikasiyaların açılması, iqtisadi əməkdaşlıq layihələrində iştirak və qarşılıqlı etimad mühitinin formalaşması Ermənistanın uzunmüddətli maraqlarına uyğundur.

**P.İSMAYILOV**

# 38 il əvvəlin bu günü...

## Bir saxta qərarın tarixi və fəsadları

Son 30-40 ildə artıq keçmişdə qalan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaşananlar bir daha təsdiqlədi ki, tariximizin işıqlı səhifələrini hər zaman qürur hissi ilə qeyd etdiyimiz kimi, qaranlıq məqamları, faciələrimizi də heç vaxt yaddan çıxartmamalı, əksinə onların bir də təkrarlanmaması üçün ibrət götürməliyik. 38 il bundan əvvəl - 1988-ci il fevralın 20-də tariximizdə daha bir qaranlıq səhifə açılıb. Belə ki, həmin gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Xalq Deputatları Sovetinin erməni əsilli deputatları vilayətin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs veriblər (azərbaycanlı və digər millətlərdən olan deputatlar iclasda iştirak etməyiblər).

Sonradan Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsi" haqqında qərar qəbul edib. Bununla da Azərbaycanla Ermənistan arasında təxminən üç onillik ərzində davam edən və on minlərlə insanın həyatına son qoyan qanlı münaqişənin əsası qoyulub.

### Azərbaycanın içinə qoyulan bomba

Əvvəlcə keçmiş DQMV-nin yaranması tarixinə qısa nəzər salaq. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılıb. DQMV-nə Əsgəran, Hadrut, Ağdərə, Xocavənd, Şuşa rayonları və vilayət tabeli Xankəndi şəhəri daxil edilmişdi. 1981-ci il iyunun 16-da isə Azərbaycan SSR Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun qəbul edib və muxtariyyətin səlahiyyətlərində yeniliklər edilib. Dağlıq Qarabağdakı muxtariyyətin sonuncu rəsmi statusu da bu qanunla müəyyənləşib.

Bu qısa xronikada keçmiş DQMV-nin tarixinin yalnız görünən məqamları öz əksini tapır. Bunun alt qatında isə daşnakların və imperialist güclərin məkrli məqsədləri dayanırdı. Zamanında Azərbaycan ərazisində keçmiş DQMV-nin yaradılmasına hansısa bir zərurət yox idi. Tarixi ədalət də bunu inkar edirdi. Keçmiş DQMV-nin inzibati ərazisi tarixən azərbaycanlıların yaşadıqları şəhər və kəndlərdən təşkil olunmuşdu. Zamanında İranla Rusiya arasında imzalanan Türkmənçay və Gülüstan müqavilələrindən sonra isə bu ərazilərə məqsədli şəkildə erməni əhali köçürülüb. O cümlədən separatçıların qondarma qurumun baş şəhəri elan etdikləri Xankəndiyə münasibətdə də erməni məkrinə yol verilib. Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. İlk vaxtlarda yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında məhz bu adla tanınıb: Xanın kəndi. Az vaxt ötəndən sonra isə "Xanın kəndi" "Xankəndi" adını alıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə hədiyyə olunub. "Xankəndi" toponimi 1923-cü ildə keçmiş ittifaqın mərkəzi hakimiyyətinin diktəsi ilə dəyişdirilib və şəhərə saxta "Stepanakert" adı verilib. Separatçılar da məhz bu toponimdən istifadə ediblər.

Beləliklə, Azərbaycan ərazisində keçmiş DQMV-nin yaradılması imperialist güc mərkəzlərinin uzaq məqsədlərinə xidmət edirdi. Bununla onlar özləri üçün dayaq məntəqəsi qururdular. Böyük siyasətçi Heydər Əliyev 10 noyabr 1999-cu il tarixində bir qrup Azərbaycan ziyalısı ilə keçirdiyi görüşdə keçmiş DQMV-nin yaradılmasının kerçək məqsədlərinə diqqət çəkərək vurğulayıb: "Sovetlər dövründə mən Azərbaycana 14 il rəhbərlik etmişəm. 1923-cü ildə yaradılan Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixini çox yaxşı bilirəm. Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın başına bir bəla olub. Dağlıq Qarabağa verilən muxtariyyət Azərbaycanın içinə qoyulmuş bomba idi. Nə zamansa bu bomba partlamalı idi".

"Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycan izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi". Bu fikirləri isə Prezident İlham Əliyev azad Şuşada Molla Pənah Vaqifin büstünün və məqbərəsinin qarşısında çıxış edərkən deyib. Dövlət başçısı bildirib ki, ulu öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə Onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə dəyişməsi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi: "Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, separatizm baş qaldıra bilməzdi", - deyə dövlətimizin başçısı vurğulayıb.



### Muxtariyyət ləğv edilsə də...

1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olunub. Həmin qanuna əsasən "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayılıb, Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq Stepanakert şəhəri - Xankəndi şəhəri, Mardakert şəhəri - Ağdərə şəhəri, Martuni şəhəri - Xocavənd şəhəri, Mardakert rayonu - Ağdərə rayonu, Martuni rayonu - Xocavənd rayonu adlandırılıb, Əsgəran və Hadrut rayonları ləğv edilib, Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılıb, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilib. Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika rayonları sırasına daxil edilib.

Lakin DQMV ləğv edilsə də, əsası qoyulan və separatizmə, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə təhdid yaradan münaqişə söngiməədi. Söhbət, əslində, Ermənistan tərəfindən Azərbaycana qarşı elan olunmamış mmüharibədən gedirdi. Hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri hərbi və mülki şəxslər arasında heç bir fərq qoymadan işğal etdikləri rayon və şəhərlərdə dinc azərbaycanlı əhalini amansızlıqla qətlə yetirib. Azərbaycanlılar etnik təmizləməyə və soyqırımına məruz qalıblar. Ermənistanın hərbi-siyasi rəhbərliyi Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə kütləvi qırğınını törətməklə, Dağlıq Qarabağda yaşayan azərbaycanlı mülki əhalinin bir hissəsini fiziki cəhətdən məhv etmək, qalan hissəsinin isə müqavimət əzmini qırıb regionu onlardan təmizləmək məqsədi güdürdü. 1992-ci il fevralın 26-na keçən gecə Azərbaycanın müasir tarixində ən faciəli hadisə baş verdi. Erməni hərbi birləşmələri Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırımı törədiblər. Nəticədə 106-sı qadın, 63-ü uşaq olmaqla, 613 nəfər dinc sakin qətlə yetirilib. 1992-ci ilin mayında erməni hərbi birləşmələri Şuşanı ələ keçiriblər. Bununla da ermənilər Dağlıq Qarabağın, demək olar, bütün ərazisini işğal ediblər. Növbəti addım Dağlıq Qarabağı Ermənistanla birləşdirən Laçın rayonunun işğalı oldu. Daha sonra, 1993-cü ilin aprelində Kəlbəcər, elə həmin ilin iyul-oktyabr aylarında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları işğal olundu.

Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfərdən çox azərbaycanlı hərbi əməliyyatlar dövründə öldürülüb, 50 min nəfərdən çoxu isə əlil olub. I Qarabağ müharibəsi nəticəsində aralarında 71 uşaq, 267 qadın, 326 qoca olmaqla, itkin düşmüş 3890 azərbaycanlının, o cümlədən əsir və girov götürüldüyü müəyyən edilmiş 872 nəfərin (2020-ci il dekabrın 1-nə olan məlumata əsasən) sonrakı taleyi məlum deyil. 1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb.



### Ərazi bütövlüyümüz və suverenliyimiz hərbi-siyasi yolla təmin edilib

Ermənistanın təxribatlarına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

Vətən müharibəsində əldə olunan Qələbənin miqyası çox böyükdür. Ordumuz cəmi 44 gün ərzində düşməni kapitulyasiyaya məruz qoydu. Xətırladaq ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Bunun ardınca üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq noyabrın 10-dan sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə də atılmadan Azərbaycana təhvil verilib. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb. Bununla da ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edilib.

44 günlük müharibədən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə Qarabağda separatizm yuvasını dağıtmaq və ölkənin bütün ərazisində suverenliyimizin tam təmin edilməsinə nail olmaq idi. Bu ümummilli ideyanı isə Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində reallaşdırmağa nail oldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində, Xocalı şəhərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində, Xocavənd şəhərində və Ağdərə şəhərində Azərbaycan Bayrağının ucaltması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibədə qazanılan Zəfərə bərabər növbəti parlaq Qələbə idi. Qarabağda suverenliyi bərpa edən Azərbaycan bununla mahiyyət etibarı ilə 10 Noyabr Zəfərini tamamlamış oldu. Artıq ərazilərimizdə nə qondarma DQMV var, nə də separatizm yuvası!

*Mübariz ABDULLAYEV*

# "Amnesty İnternational" təşkilatının gerçək üzü

## Təşkilat erməniəsilli müharibə canilərinin "vəkili" rolunda çıxış edir

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin dinamik tərəqqisinin və ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

### Saxta təşkilatın saxta ittihamları

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra isə Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin və onun lideri- Prezident İlham Əliyevin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə gücləndi. Lakin bəzi qərəzli dairələr Azərbaycanın uğurlarını, xüsusilə qələbəsini həzm edə bilmirlər. Bunun üçün də ölkəmizin müsbət beynəlxalq imicinə xələl gətirmək üçün "qara piar" kampaniyası aparır, reallıqlara uyğun olmayan məlumatlar yayırlar. "Amnesty İnternational" təşkilatı da məhz belələrindəndir.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunana qədər bu təşkilat ölkəmizdə demokratiya və insan haqları bağlı saxta məlumatlar yayırdı. Lakin hər dəfə qurumun cavabı arqumentlər əsasında verilirdi. Onun diqqətinə çatdırılırdı ki, Azərbaycan bütün azadlıqların təmin edildiyi müasir, demokratik ölkədir. İnkişafın milli modeli formalaşdıran Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən mühüm uğurlardan biridir.

### Təşkilat erməni lobbisinin girovuna çevrilib

Nəzərə alaq ki, Ermənistanın 30 illik işğalı dövründə "Amnesty İnternational" bu işğal siyasətinə görə rəsmi İrəvanı heç vaxt tənqid etmədi, yüzminlərlə azərbaycanlının doğma yurdlarından didərgin düşməsini səssizliklə qarşıladı. Azərbaycan öz torpaqlarını işğaldan azad etməyə başladıqda isə təşkilat yenidən "fəallaşaraq" Ermənistanın vəkili rolunda çıxış etdi. Belə ki, "Amnesty İnternational" Vətən müharibəsi zamanı, eləcə də Qarabağda keçirilən antiterror tədbirlərindən sonra bir neçə dəfə ölkəmizə qarşı bəyanatlar səsləndirib. Fevralın 17-də isə bu təşkilat Azərbaycan məhkəməsinin müharibə cinayətləri törətmiş erməniəsilli şəxslər barədə çıxardığı hökm barədə tamamilə əsassız, böhtan xarakterli açıqlama yayıb. Əlbəttə, sözügedən açıqlama reallığı əks etdirmir.

Həmin dairələr nəzərə almalıdır ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə, heç bir yerdən yardım almadan bərpa edib. Eyni zamanda, müharibə cinayətkarlarını həbs edərək ədalət mühakiməsinə çıxardı. Məqsəd isə ədalətin və beynəlxalq hüququn təmin edilməsi idi. Dövlətimiz buna da nail oldu. Belə ki, Qarabağda antiterror tədbirlərindən sonra separatçı rejimin rəhbərliyində olmuş ermənilər, torpaqlarımızın işğalında iştirak edən yüksək rütbəli hərbçilər həbs olunaraq ədalət mühakiməsinə çıxarıldılar. Məhkəmə tərəfindən onlara hökm oxunub. Sonuncu hökm isə fevralın 17-də Ruben Vardanyan haqqında verilib.

Cinayətkarlar həm həbs olunanda, həm də məhkəmələri keçiriləndə müxtəlif qurumlar, o cümlədən Avropa Parlamenti, AŞPA, eləcə də müxtəlif ölkələrin parlamentlərində erməni lobbisinin təsiri ilə bir sıra "sənədlər" qəbul edilib. Lakin bütün bunlar dövlətimizin qətiyyətli mövqeyinə heç bir təsir göstərmək iqtidarında olmadı. Bu baxımdan, "Amnesty İnternational"ın da açıqlaması "sabun köpüyündən" başqa bir şey deyil.




### İcma: "Amnesty İnternational" Qərbi azərbaycanlıların qayıdışını dəstəkləməkdən boyun qaçırıb

Yeri gəlmişkən, Qərbi Azərbaycan İcması bəyanat yayaraq "Amnesty İnternational" təşkilatının fevralın 17-dəki açıqlamasını pisləyib. Qeyd olunub ki, Qərbi Azərbaycan İcması müxtəlif vaxtlarda "Amnesty İnternational" təşkilatına Ermənistandan deportasiya olunmuş azərbaycanlıların pozulmuş hüquqlarının bərpasına kömək etməsi üçün müraciət etmişdi. Lakin təşkilat olduqca mücərrəd cavab verərək ədaləti dəstəkləməkdən boyun qaçırmışdı. Bəyanatda, həmçinin bildirilib: "Amnesty İnternational" bu mücərrəd cavabın səbəblərini bir daha göstərib. Təşkilat özünün kağız üstündə bəyan etdiyi nəcib dəyərlərə xəyanət edərək işğalçının - etnik təmizləmə, bir həftə sonra 34-cü ildönümü anılacaq Xocalı soyqırımının törədən canilərin yanında olduğunu, insan haqlarına, insan iztirablarına, humanitar fəlakətlərə yalnız siyasi prizmadan yanaşdığını nümayiş etdirib. "Amnesty İnternational" belə saxtakar mövqeyi ilə bu gün dünyada beynəlxalq təsisatlara etibarın kəskin şəkildə zədələnməsinə öz "töhfəsi"ni verməkdədir".

Həqiqətən də, bu təşkilat ədalət və hüququn tərəfdarıdırsa Ermənistandan deportasiya olunmuş azərbaycanlıların tarixi yurdlarına qayıdışına dəstək verməlidir. Nəzərə alaq ki, Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. İnsan Hüquqları Ümumi Bəyannaməsində, Mülki və siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, BMT-nin Qaçqınların Statusuna dair 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu və digər sənədlərdə həmin hüquq öz əksini tapıb.

Bütövlükdə, "Amnesty İnternational"ın fəaliyyətinə gəldikdə, bu təşkilatın mənfi imicə malik olması sirr deyil. Bəhs olunan təşkilat korrupsiyada adı hallanan, sifariş yerinə yetirən qurum imici qazanıb, ayrı-ayrı maraqlı qüvvələrin əlində müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq vasitəsi funksiyasını yerinə yetirir. Təbii ki, belə çirkli reputasiyaya malik bir təşkilatın kimsə ittiham etməyə haqqı yoxdur.

*Nardar BAYRAMLI*



## bp şirkəti ilə 1 milyard dollar həcmində yeni müqavilə imzalanıb

# İkinci neft bumuna keçid...

"Azəri-Çıraq-Günəşli" (AÇG) neft yatağının və "Şahdəniz" qaz yatağının operatoru olan bp şirkəti "SOCAR AQŞ" və ABŞ-ın "Helmerich & Payne" (H&P) şirkətinin birgə müəssisəsi olan "Turan Drilling & Engineering Company" MMC ilə yeni müqavilə imzalayıb. Müqavilə Xəzər dənizində bp-nin idarə etdiyi səkkiz neft və qaz hasilatı platforması - "Mərkəzi Azəri", "Şərqi Azəri", "Qərbi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq", "Çıraq", "Mərkəzi-Şərqi Azəri" (ACE) və "Şahdəniz Alfa" platformalarının istismar əməliyyatları və texniki xidmət işlərində hasilatın artırılması hədəflərini əks etdirir. Belə ki, müqavilə çərçivəsində personal dəstək tədbirlərinin və texniki xidmət işlərinin artırılması, idarəolunmanın daha effektiv təşkili, qurğuların bütövlüyü və konstruksiyaların texniki xidməti üzrə yeni yaradılmış mühəndislik qrupunun idarə edilməsi, eləcə də digər işlərin görülməsi nəzərdə tutulur. Cari ilin mart ayından qüvvəyə minəcək müqavilənin ümumi dəyəri təxminən 1 milyard dollara bərabərdir.

Bu müqavilə Xəzər regionunda bp-nin tərəfdaşları olan şirkətlərlə bağladığı növbəti irihəcmli müqavilə hesab edilir. Sənəd ingilis şirkətinin tərəfdaşları ilə birgə Azərbaycanda fəaliyyətə başladığı vaxtdan əsas öhdəlik kimi yerli potensialın inkişaf etdirilməsi üzrə həyata keçirdikləri uzunmüddətli strategiyanın mühüm bir hissəsi kimi dəyərləndirilir. Bu, eyni zamanda, SOCAR-la sıx əməkdaşlıq çərçivəsində bp-nin Xəzərdəki ehtiyatların daha səmərəli və rəqabətədavamlı şəkildə işlənməsinə dair biznes məqsədləriə xidmət edir. Bp-nin vitse-prezidenti Rassel Morris bildirib ki, "Turan Drilling & Engineering Company" ilə olan uzunmüddətli müqavilənin yenilənməsi Xəzər regionunda uzunmüddətli fəaliyyətin, təhlükəsiz, etibarlı və səmərəli əməkdaşlığa söykənən beynəlxalq təcrübənin, qabaqcıl qlobal yanaşma və texnologiyaların tətbiqinin növbəti mərhələsidir. Bu, həmçinin, SOCAR-ın Xəzərə dair dərin biliklərini və regionun qazma sənayesindəki aparıcı mövqeyini özündə birləşdirən əməkdaşlıq strategiyasında bp-nin önəmli yer almasının təsdiqidir.

Beləliklə, yeni müqavilə Xəzərin Azərbaycan sektorunda neft və qaz hasilatı sənayesində müasir standartların və qazma texnologiyalarının tətbiqi sayəsində nəzərdə tutulan hasilatın artırılması üzrə davamlı öhdəliyin icrasında mühüm mərhələ açmış olacaq.

**"Baker Hughes" rəqəmsal neft xidmətini təşkil edir**

Yeri gəlmişkən, SOCAR-ın prezidenti Rövşən Nəcəf dünyanın nüfuzlu şirkətlərindən olan "Baker Hughes"un neft servisləri və avadanlıqları üzrə icraçı vitse-prezidenti Amerino Gatti ilə görüşdə də yeni hasilat sənayesi imkanlarını dəyərləndirib. Tərəflər arasında imzalanmış Əməkdaşlığa dair Sazişə əsasən, ötən müddət ərzində birgə reallaşdırılan layihələr nəzərdən keçirilib. "Baker Hughes"lə birgə quyu tikintisi üçün texnologiyaların, elektrik dalma nasoslarının (ESP) tətbiqi və quyular üzrə rəqəmsallaşmanın aparılması istiqamətində nəzərdə tutulan işlərin əhəmiyyətinə toxunulub.

Beləliklə, bütün bu tədbirlər də neft hasilatının dayanıqlılığının təmin edilməsi, yeni rəqəmsal imkanlar hesabına sənayedə istehsalın artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki Azərbaycanın məqsədi qarşıdakı illərdə neft hasilatının artımına nail olmaqdır, son illərdə quyularda hasilatın aşağı düşməsi quyularda yeni texnoloji və rəqəmsal üsullardan istifadə etməklə dayanıqlılığı gücləndirməyi vacib edir. Bu konteksdən bp və digər şirkətlərlə qeyd edilən istiqamətdə ardıcıl tədbirlərə start verilib.

Xatırladaq ki, Prezident İlham Əliyev ötən ay İsveçrədə keçirilən Davos İqtisadi Forumunda təşkil edilən sessiyada neft hasilatı ilə bağlı fikirlər səsləndirərəkən neft hasilatını artırmaqla bağlı mühüm planların nəzərdə tutulduğunu bildirib. Dövlətimizin başçısı qeyd edib ki, beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr verdiyi halda Azərbaycanda ikinci neft bumunu yaşaya bilərik: "Əgər beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr versə, Azərbaycanda ikinci mühüm neft bumunu yaşaya biləcəyimizə dair çox haqlı ümidlərimiz var".

**Asan neft dövründən texnoloji istehsala**

Reallıq budur ki, asan neft dövrü başa çatıb və Xəzərdə yataqların məhsuldarlığını saxlamaq üçün müasir texnologiyaya ehtiyac var. 2025-ci ildə ölkəmizdə 27,7 milyon ton neft (qaz kondensatı ilə birlikdə) hasil edilib. Hasilatın 16,2 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 3,8 milyon tonu "Şahdəniz"in, 0,6 milyon tonu "Abşeron" yatağının, 7,1 milyon tonu isə SOCAR-ın payına düşüb. İl ərzində 23,1 milyon ton neft (qaz kondensatı ilə birlikdə) ixrac olunub. Halbuki 5-6 il əvvəl hasilat 30-35 milyon ton idi. Rəqəmlər




də onu göstərir ki, son illərdə azalma baş verir, ona görə də hasilatı sabitləşdirmək və artırmaq üçün AÇG-də dərinsulu quyulara sualtı müdaxilə əməliyyatları planlaşdırılır. "AÇG" yatağının operatoru "BP-Azerbaijan" şirkətinin məlumatına əsasən, Xəzərdəki əməliyyatlarda ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə (QDYM) texnologiyası tətbiq olunacaq. "Blue Ocean" dikborusuz müdaxilə sistemi (BORİS) kimi tanınan bu texnologiya "Oceaneering International" şirkətinin sualtı mexaniki tros vasitəsilə quyuya müdaxilə sistemidir. Bu innovativ yanaşma təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan verəcək və bununla da yatağın sonrakı potensialının üzə çıxarılmasına imkan verəcək. Bu məqsədlə "Xankəndi" sualtı tikinti texniki işlərə hazırlıq vəziyyətinə gətirilib.

**Uzun fasilədən sonra neft ÜDM-i artmağa başlayıb**

Bp şirkəti innovasiyayönümlü istehsala keçid sayəsində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda əlavə olaraq 2 milyard bareldən çox neft hasil etməyi planlaşdırır. Şirkətin AÇG sahəsinin işlənməsi üzrə meneceri Əfqan Hüseynovun sözlərinə görə, AÇG-nin gələcək hasilat potensialını artırmaq üçün kompleks yenilənmə və yeni texnologiyaların tətbiqi davam etdirilir. Yatağın statik və dinamik modelləşdirilməsi daha da təkmilləşdirilib. 700-dən çox quyudan toplanmış məlumatlar və 16 min metrdən artıq DTS nəticələri mürəkkəb layların dəqiq xəritələndirilməsinə imkan verib. Bunun nəticəsində təqribən 300 min barel əlavə hasilat potensialı yaranıb və potensial daha da artmaqdadır.

Yeri gəlmişkən, 2026-cı ilin yanvar ayında iqtisadi inkişafın əsas göstərici olan ümumi daxili məhsul (ÜDM) 1,7 faiz artaraq nominal həcm etibarilə 9 milyard manatı ötüb. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 2,3 faiz artıb. Diqqət çəkən məqamlardan biri son illərdə neft-qaz sektorunda hər il azalan ÜDM-in 2026-cı ilin ilk ayında artım nümayiş etdirməsidir. Belə ki, neft ÜDM- neçə ildir ki, mənfi saldo ilə qeydə alınırdı, əlavə dəyər birbaşa qeyri-neft sektorunun hesabına artırdı. Artıq yeni ildən neft sektorunda da artım dinamikası əldə olunmaqla, neft ÜDM-nin müsbət saldo ilə müşayiət ediləcəyi istisna deyil. Ümidverici rəqəmlər və yeni texnoloji müdaxilə isə yeni neft bumunun başlanmasına ciddi əsaslar yaradır.

**ABŞ-la birgə Xəzərdə yeni layihələr**

Yeni neft bumuna keçid üçün SOCAR bp və dünyanın tanınmış enerji şirkətləri yeni texnologiyaların tətbiqi, innovasiya və səmərəlilik, idarəçilik və inkişaf kimi sahələrdə əməkdaşlıq imkanlarını artırıb. SOCAR və ABŞ-ın "SLB" şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

Yeri gəlmişkən, Azərbaycan və ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandumun bir istiqaməti də enerji sahəsində əməkdaşlığı nəzərdə tutur. Eləcə də SOCAR və "ExxonMobil" korporasiyası arasında imzalanmış "Əməkdaşlıq haqqında Memorandum"ABŞ-ın məşhur enerji korporasiyasının Azərbaycanda yeni fəaliyyət planlarına dair yol xəritəsidir. "Exxon" şirkəti Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması üçün "EXIM Bank"ı da prosesə qoşacaq ki, bu da nəql infrastrukturunun şaxələnməsində potensial maliyyəni təmin edəcək.

**Mədən sənayesində "ağıllı texnologiyalar"ın tətbiqi**

SOCAR ilə Birləşmiş Ərəb Əmirliklərinin "Emirates National Oil Company Group" ("ENOC Group") arasında da sıx münasibətlər mövcuddur. Bir müddət əvvəl tərəflər kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində əməkdaşlıq məsələlərini müzakirə edib. Tərəflər enerji sektorunun müxtəlif istiqamətləri üzrə, o cümlədən qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıblar. SOCAR-la BƏƏ-nin "Dragon Oil" şirkəti arasında imzalanmış Anlaşma Memorandumu isə mədən sənayesi hasilatında "ağıllı texnologiyalar"ın tətbiqini nəzərdə tutur.

Göründüyü kimi Xəzər hövzəsi texniki cəhətdən ən maraqlı və strateji baxımdan vacib bölgələrdən biri olaraq qalır və bu amil dənizin zəngin neft zonası kimi əhəmiyyətini təsdiqləyir. Ona görə də, müasir texnoloji sıçrayışlar fonunda neft sənayesinin yeni innovasiyalara ehtiyacı artıb və hazırda yeni ideya və yanaşmalar da bu səmtə istiqamətlənib. Bu istiqamətdə Azərbaycanın əsas enerji partnyoru olan bp şirkəti Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dikborusuz yüngül müdaxilə texnologiyası tətbiq edəcək. Bu innovativ metodlar hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan verəcək.

Beləliklə, Azərbaycan bp və digər xarici tərəfdaş şirkətlərlə hasilat sənayesində yeni müqavilələr imzalaması neft sənayesində artımı optimallaşdırmaqla, ölkəmizin sadiq təchizatçı kimi uzun illər regional üstünlüyünü təmin edəcək.

*E.CƏFƏRLİ*

*N.BAYRAMLI*

# Tarixi əhəmiyyətli konfrans

## "Neokolonializm və qlobal bərabərsizlik"

Fevralın 19-da Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm və qlobal bərabərsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransda ilk dəfə olaraq müstəmləkə ərazilərinin yerli əhalisi ilə yerində işləyən antropoloqlar və psixoterapevtlər, müstəmləkəçiliyə həsr edilmiş Virtual Muzeyin yaradılmasında iştirak etmiş ekspertlər, eləcə də həmin ərazilərdə fəaliyyət göstərən müstəqillik hərəkatlarının rəhbər şəxsləri, həmçinin neokolonializm sahəsində ixtisaslaşmış tədqiqatçılar iştirak ediblər.

Tədbir çərçivəsində müxtəlif sosial və mədəni kontekstlərdə müstəmləkəyə məruz qalmış xalqların travmatik və sosial təcrübələri, müstəmləkə güclərinin qanunsuz fəaliyyətindən qaynaqlanan struktur problemlər və davam edən bərabərsizlik hallarının birbaşa öyrənilməsi, eləcə də bu təcrübələrin sənədləşdirilməsi, təhlili və beynəlxalq müstəviyə çıxarılması üçün məlumatlara əlçatanlığın təmin olunması məsələləri ətrafında müzakirələr aparılıb.Eyni zamanda, fərdi həyat hekayələrinin sənədləşdirilməsi və bu tipli materialların beynəlxalq platformalarda yayılması, xüsusilə kolonializmin əsarət altında yaşayan xalqlarda yaratdığı travmatik təsirlər və psixoloji nəticələrinin elmi-tədqiqat obyekti kimi nəzərdən keçirilməsi məsələləri gündəmə gətirilib. Müzakirələrdə, həmçinin rəqəmsal və elmi platformaların beynəlxalq təşkilatların müvafiq virtual sistemləri ilə inteqrasiyası, müstəmləkəçiliyi tədqiq edən beynəlxalq araşdırma qrupları, ekspertlər və məhkəmə materialları üçün əlçatanlığın təmin olunması məsələləri diqqət mərkəzində olub.

Tədbirdə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, BTQ son iki ildə qlobal dekolonizasiya prosesinin təşviqində nümunəvi fəaliyyət göstərib.Müstəqillik hərəkatlarının müstəmləkəçiliyə qarşı apardığı mübarizəyə BTQ-nin dəstəyini ifadə edən icraçı direktor deyib: "Son iki il ərzində 35-dən çox beynəlxalq konfrans və tematik tədbir təşkil etmişik, təxminən 150 tədqiqat aparmışıq, 40-dan artıq hesabat və üç kitab nəşr etdirmişik. Birləşmiş Millətlər Təşkilatına və onun qurumlarına alternativ hesabatlar və bəyanatlar təqdim etmişik".A.Abbasov əminliyini ifadə edib ki, Bakı Təşəbbüs Qrupu ilə müstəqillik hərəkatları arasında uğurlu əməkdaşlıq nəticəsində xarici ərazilərin və hələ də müstəmləkə idarəçiliyi altında əziyyət çəkən regionların dekolonizasiyası istiqamətində mühüm nəticələr əldə olunacaq.

Konfrans tarixi baxımdan da əhəmiyyətlidir. Belə ki, ilk dəfə olaraq antropoloqlar və psixoterapevtlər müstəmləkə əsarətindən təsirlənən yerli əhali ilə birbaşa işləyərək fərdi və qrup müsahibələr aparıb, travmatik təcrübələri qiymətləndirib, həyat hekayələrini sənədləşdirib, həmçinin sosial, mədəni və psixoloji təsirləri sistemli şəkildə qeydə alıblar. Toplanmış materiallar beynəlxalq təşkilatlarla əməkdaşlıq edən məruzəçilər, ekspertlər və məhkəmələr tərəfindən istinad edilə biləcək etibarlı və şəffaf informasiya mənbəyi rolunu oynayır.

Tədbirdə çıxış edən Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin (UPLG) baş katibi, Beynəlxalq Dekolonizasiya Cəbhəsinin Qvadelupa bölməsi üzrə koordinatoru Jan-Jakob Bisep deyib ki, cəmiyyətlərdə sosial münasibətlər, siyasi proseslərdən və hakimiyyət strukturlarından qaynaqlanaraq insanların həyat keyfiyyətinə və ümumi rifahına dərin təsir göstərir. Siyasi fəaliyyət hüquqlara hörmət və ümumi mənafenin qorunması prinsiplərinə əsaslanmalı, üstünlük və hökmranlıq deyil, etik dəyərlər və məsuliyyət ilə istiqamətlənməlidir.Onun sözlərinə görə, müharibə heç vaxt təcrid olunmuş və ya təsadüfi bir hadisə deyil. O, güc balansının pozulması və uzun müddət toplanmış siyasi gərginliklərin fundamental nəticəsidir. "Fransanın keçmiş prezidenti Fransua Ollandın da ifadə etdiyi kimi, münaqişə dövrlərində siyasi fəzilət bəzən pis niyyətlərin və ideoloji sapmaların təzyiqi altında sınağa çəkilir. Bu səbəbdən ədalətsiz strukturlaşmalara, bəzi ictimai sistemlərdə mövcud olan istismar və kolonialist miraslara qarşı mübarizəni davam etdirmək vacibdir ki, daha ədalətli və tarazlı cəmiyyətlər qurmaq mümkün olsun", - deyə Jan-Jakob Bisep qeyd edib.




BTQ-nin təşkilatçılığı ilə bu mövzuda beynəlxalq konfrans keçirilib

Antropoloq, "Qara Sivilizasiya" Muzeyinin İdarə Heyətinin üzvü, "L'Africaine d'Architecture" platformasının təsisçisi Sename Kofi Aqbodjinu isə çıxışında söyləyib ki, siyasi təhlükə bu gün imperiya məntiqinin yenidən qayıdışı kimi görünür. "Müharibələrin geri dönüşü", sadəcə, regional qarşıdurmaların artması deyil, kolonial düşüncə tərzinin davamı, hətta yenidən fəallaşması kimi oxuna bilər.O bildirib ki, müasir rəqəmsal texnologiyalar bəzən kolonial məntiqin yeni forması kimi çıxış edir. Nəzarət kapitalizmi, məlumatların kütləvi şəkildə toplanması və çıxarılması, iri texnoloji platformalarla cəmiyyətlər arasında yaranan güc asimmetriyası bu prosesin əsas xüsusiyyətlərindəndir: "Ekoloji təhlükə də kolonial irslə sıx bağlıdır. Ekstraktiv iqtisadi model, ərazilərin iyerarxiyalaşdırılması və bəzi regionların "qurban zonaları"na çevrilməsi, ekoloji xərclərin Qlobal Cənuba ötürülməsi bu əlaqəni açıq şəkildə göstərir".

Əlcəzair Universitetində politologiya sahəsində elmi tədqiqatçı, antropoloq Hişem Daud qeyd edib ki, Əlcəzair Fransanın uzunmüddətli və son dərəcə qəddar müstəmləkəçiliyinə məruz qalmış ölkələrdən biridir. Burada zorakılıq həm də gündəlik, inzibati, simvolik və psixoloji xarakter daşıyırdı. İşgəncələr fiziki yaralar yaradırdısa, davamlı mənəvi təzyiq və ləyaqətin inkarı dərin travmalar buraxırdı.Onun sözlərinə görə, ağdərili fransızlar yüksək mədəniyyət sahibi kimi təqdim edilirdi, əlcəzairli isə hüquqi və simvolik baxımdan aşağı mövqedə yerləşdirilirdi: "Bu ideologiya siyasi diskursla məhdudlaşmır, həm də elmi və mədəni mexanizmlərlə dəstəklənirdi".

"Əminəm ki, insanlıq ailəsi bir araya gəldikdə, bu gün burada Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilmiş görüşdə olduğu kimi, müxtəlif qitələrdən və millətlərdən olan insanlar bir ailə kimi birləşdikdə çox böyük işlər görə bilərlər". Bu fikirləri isə Əlcəzairin Mouloud Mammeri Universitetinin biologiya müəllimi, tədqiqatçı Hamedi Siyad Nabila söyləyib. O, mühüm və şərəfli mübarizələr apardıqlarını diqqətə çatdırıb: "Apardığımız mübarizələrdə qalib gələ bilərik. Bu mübarizələr insan ləyaqəti və ədalət uğrunda aparılan mübarizələrdir".

Çıxış edən Qlobal Təzminat Hərəkatının Prezidenti, Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi Jose Martin Jan-Pyer bildirib ki, Fransa guya qoruduğunu iddia etdiyi xalqları onların yaddaşından, mədəniyyətindən və mənəviyyatından məhrum edib. Yalnız inkar edilənləri bərpa etməklə, tapdalananları düzəltməklə biz həqiqətən ortaq və xalqların müxtəlifliyinə hörmət edən bir gələcək qura bilərik. Onun sözlərinə görə, bu gün ərazilərimizdə baş verən aktual hadisələr fonunda biz Fransa ilə onun keçmiş müstəmləkələri arasında münasibətlərin, sadəcə, yenidən qurulmasına çağırmırıq:"Biz xalqların öz müqəddəratını təyin etmək və tam müstəqilliyə nail olmaq kimi ayrılmaz hüququna hörmət tələb edirik. Son hadisələr vəziyyətin nə qədər ciddi olduğunu göstərir. 2021-ci ildə keçirilən və mübahisələrə səbəb olan üçüncü referendumdan sonra 2024-cü və 2025-ci illərdə repressiyalar daha da güclənib, fövqəladə vəziyyət rejimi bərpa edilib. Nəticədə ölənlər, yüzlərlə yaralanan olub və siyasi təqiblər baş verib. Fransa dövləti isə müxtəlif sazişlər, layihələr və digər təşəbbüslərlə qaçılmaz olan prosesi ləngitməyə çalışır".

Konfransda digər çıxış edənlər də mövzu barədə fikirlərini bildiriblər.

Konfransın yekunlarına dair bəyanat qəbul olunub. Bəyanatda bildirilir ki, konfransın iştirakçıları qlobal bərabərsizliyin tarixi və struktur səbəblərini tanıyaraq, xalqların öz müqəddəratını təyinetmə və təbii sərvətlər üzərində suverenlik hüquqlarını dəstəkləyir, dekolonizasiyanı davamlı öhdəlik kimi qəbul edir və beynəlxalq həmrəylik prinsipinə sadiqlik nümayiş etdirirlər. İştirakçılar beynəlxalq institutlarda islahatların həyata keçirilməsini, bərabərsizliklə mübarizəni, elmi araşdırmalar və ictimai dialoqun gücləndirilməsini, ədalətli və suverenliyə hörmət edən tərəfdaşlıqların təşviqini çağırış edirlər.

Bakı Təşəbbüs Qrupu isə Virtual Kolonializm Muzeyi vasitəsilə qlobal dekolonizasiya prosesinə verdiyi töhfəyə görə təqdir olunub.

# Borc Strategiyası üzrə strateji məqsədlərə nail olunub

## Dövlət borcunun idarə edilməsi ilə bağlı yeni strategiya hazırlanır

Fevralın 18-də Maliyyə Nazirliyində keçirilən növbəti kollegiya iclasında çıxış edən nazir Sahil Babayev bildirib ki, 2022-2025-ci illər üzrə yenilənmiş Borc Strategiyası ilə müəyyən edilən strateji məqsədlərə tam nail olunub, ümumi dövlət borcunun ÜDM-ə nisbətinin 30 faizdən aşağı saxlanılması, xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi kimi müəyyən edilən prioritet tədbirlər gözlənilib. Bununla yanaşı, 2025-ci ilin sonunadək faiz dərəcəsi riskinin məqbul həddə saxlanılması üçün dəyişkən faiz dərəcəsi ilə cəlb olunan borcun ümumi portfeldə payının 50 faizi keçməməsi, daxili borcalmanın genişləndirilməsi, bunun müqabilində xarici dövlət borcunun tədricən azaldılması, dövlət qiymətli kağızlarının orta ödəniş müddətinin mərhələli şəkildə uzadılması təmin edilib.

Qeyd olunub ki, 1 yanvar 2026-cı il tarixinə Azərbaycanın dövlət borcunun ümumi məbləği 25 milyard 987,5 milyon manat təşkil edərək ÜDM-in 20,1 faizinə bərabər olub. Bu, ötən ilin əvvəli ilə müqayisədə 5,1 faiz və ya 1,4 milyard manata yaxın azalma deməkdir. Dövlət borcunun 31,5 faizi xarici, 68,5 faizi isə daxili borcun payına düşür. Dövlət zəmanətli borcların həcmi də azalaraq 10 milyard 368,4 milyon manat və ya ÜDM-in 8 faizi səviyyəsində qərarlaşıb.

### 300,1 milyon manat qənaət

Dövlət borcunun dayanıqlığının möhkəmləndirilməsi, borc portfeli üzrə risk meyarlarının azaldılması, xəzinə vəsaitlərinin daha səmərəli idarə olunması üzrə 2025-ci il ərzində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib. İl ərzində yeni cəlb olunan borcalmalar müqabilində həyata keçirilən əsas borc ödənişləri dövlət borcunun səviyyəsinin azalmasını şərtləndirib. Eyni zamanda, 2025-ci il ərzində dövlət borcuna xidmət xərclərinin optimallaşdırılması istiqamətində bir sıra yüksək faizli dövlət istiqrazlarının vaxtından əvvəl geri alınması, daha aşağı faizli dövlət istiqrazları hesabına iri həcmli yüksək faizli istiqrazların təkrar maliyyələşdirilməsi əməliyyatları yerinə yetirilib. Nəticədə xəzinə vəsaitlərindən səmərəli istifadə nəticəsində dövlət borcuna xidmət xərclərinə 300,1 milyon manat qənaət edilib, eyni zamanda, həyata keçirilən təkrar maliyyələşdirmə əməliyyatları çərçivəsində qısamüddətli istiqrazlar uzunmüddətli istiqrazlarla əvəz olunaraq borc portfelinin strukturunda müsbət dəyişiklik təmin edilib.

Qeyd olunan tədbirlər çərçivəsində aşağıdakı əsas nailiyyətlər əldə edilib:

* 2025-ci ilin əvvəli ilə müqayisədə dövlət borcunun səviyyəsi 1,4 milyard manat, o cümlədən daxili dövlət borcu 855,2 milyon manat, xarici dövlət borcu isə 537,5 milyon manat (316,2 milyon dollar) azaldılıb.

* Dövlət zəmanətli borcun səviyyəsi 589 milyon manat, o cümlədən xarici dövlət zəmanətli borc 471,4 milyon manat (277,3 milyon dolları), daxili dövlət zəmanətli borc isə 117,6 milyon manat məbləğində azalıb

* Dövlət istiqrazları üzrə orta ödəmə müddəti 2025-ci ilin əvvəli ilə müqayisədə 2026-cı ilin yanvarında əhəmiyyətli səviyyədə (təqribən 2.2 dəfə) artaraq 3,3 il təşkil edib.

* Dövlət büdcəsinin borca xidmət xərclərində ümumilikdə 300,1 milyon manat məbləğində qənaət formalaşdırılıb.

* Vahid xəzinə hesabının idarə olunması nəticəsində ümumilikdə 121,3 milyon manat, o cümlədən milli valyuta üzrə 98,6 milyon manat, xarici valyuta üzrə isə 22,7 milyon manat məbləğində faiz gəliri əldə olunub.

### ÜDM-in 6,3 faizinə bərabər

Borc siyasəti üzrə əldə edilən ən mühüm nəticə xarici borcun davamlı azaldılmasıdır. Rəqəmlərdən də göründüyü kimi Azərbaycanın xarici borcu ümumi borcun 31,5 faizinə bərabər olmaqla təxminən 8,2 milyard manat təşkil edir. Bu, dollar ifadəsi ilə 4,8 milyard dollar deməkdir. Bu rəqəm ÜDM-in 6,3 faizini təşkil edir. Xarici dövlət borcu 2025-ci ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 316,2 milyon dollar və ya 6,2 faiz azaldılıb.

Xarici borcun faizlər üzrə strukturu da təmkinli siyasət üzrə müəyyənləşib. Belə ki, dəyişkən faiz dərəcəsi üzrə öhdəliklər xarici borc portfelinin 49,3 faizini, sabit dərəcə üzrə öhdəliklər isə 50,7 faizini təşkil edir. Xarici dövlət borcunun 49,9 faizi 5 ilə qədər olan müddətdə, 44,1 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, qalan 6 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

Xarici dövlət borcunun valyuta tərkibi isə aşağıdakı kimi təsnifləşdirilə bilər:

• Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları üzrə 3,4 faiz;
• ABŞ dolları ilə 85,1 faiz;
• Avro ilə 6,5 faiz;
• Yapon yeni ilə 3,3 faiz;
• Digər xarici valyutalar üzrə 1,7 faiz

### Azərbaycan dünyada ən aşağı xarici borca malikdir

Azərbaycan hazırda xarici borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələr sırasında yer alır. Ölkəmizdə xarici borcun ÜDM-də payı 6,3 faiz olmaqla ümümdünya göstəricilərindən qat-qat aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2025-ci ilin sonunda 12,5 milyard dollar olmaqla ÜDM-in 54 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,7 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43 faizdən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi təxminən 490 dollardır. Bütün bu amillər Azərbaycanın öz iqtisadi potensialı sayəsində xarici borcu tam bağlamağa imkan verir.



Qrafik 5. Xarici dövlət borcunun tərkibinin illər üzrə dinamikası (milyard ABŞ dolları)



Qrafik 1. Dövlət borcunun strukturu (milyon manat)



Qrafik 7. Xarici dövlət borcunun kreditorlar üzrə bölgüsü

### Strateji valyuta ehtiyatları xarici borcu 18,5 dəfə üstələyir

Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 85 milyard dollar olmaqla borcu 18,5 dəfə üstələyir.

Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

Dövlət borcunun idarə olunması sahəsində növbəti addımlardan biri beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsidir. Bu məqsədlə yeni borc strategiyası sənədinin hazırlanması nəzərdə tutulur. 2026-2030-cu illəri əhatə edəcək "Dövlət borcunun idarə edilməsinə dair Strategiya"sı bir sıra hüquqi institusional çərçivələrin təkmilləşdirilməsi ilə yanaşı, daha təsirli və təmkinli borc baxışlarını özündə əks etdirəcək.

**E.CƏFƏRLİ**



# Aqrar islahatların bəhrəsi...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

## İxrac göstəricilərində yeni artım mərhələsi

Son illərölkəmizin aqrar sektorda qazandığı uğurlarla regionların sosial-iqtisadi həyatında yeni dinamika yaradıb. Günbəgün artan meyvə və tərəvəz istehsalı həm də qeyri-neft sektorunun əsas ixrac sahələrindən birinə çevrilməkdədir.Aqrar sahədə həyata keçirilən islahatlar, subsidiyalar və fermerlərə göstərilən texniki dəstək məhsuldarlığın artmasına səbəb olub. Müasir suvarma sistemləri, logistik mərkəzlərin yaradılması və soyuducu anbarların tikintisi məhsul itkisini minimuma endirib.

Eyni zamanda, regionlarda yaradılan aqroparklar yeni iş yerlərinin açılmasına, kənd əhalisinin gəlirlərinin artmasına şərait yaradır. Bu isə öz növbəsində miqrasiyanın azalmasına, kəndlərin sosial həyatının canlanmasına səbəb olur.

**Aqrar ixracda artım davam edir**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin açıqladığı son statistik göstəricilər də aqrar sahədə müşahidə olunan müsbət dinamikanı təsdiqləyir.Komitədən verilən məlumata görə, 2026-cı ilin yanvar ayında ölkədən 60 min 692,3 ton meyvə və tərəvəz ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çoxdur. İxrac edilən meyvə və tərəvəzin dəyəri 31,7 faiz artaraq 79 milyon 688,9 min dollar olub.

Müqayisə üçün xatırladaq ki, 2025-ci ilin yanvar ayında isə Azərbaycandan 60 milyon 487,7 min dollar dəyərində yəni, 58 min 72,5 ton meyvə və tərəvəz ixrac edilib.

**Çay ixracı 18 faizdən çox artıb**

2026-cı ilin yanvar ayında 61,23 ton çay ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 18,5 faiz çoxdur. İxrac edilən çayın dəyəri 20,9 faiz artaraq 570 min dollar olub. Qeyd edək ki, 2025-ci ilin yanvar ayında isə Azərbaycandan 471,3 min dollar dəyərində yəni, 51,64 ton çay ixrac edilib.

**Aqrar inkişaf regionların dirçəlişinə xidmət edir**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən iqtisadçı Fuad İbrahimovun sözlərinə görə, aqrar sahədə əldə olunan nailiyyətlər təkcə ixrac göstəricilərində deyil, regionların sosial rifahında da özünü göstərir: "Aqroparkların fəaliyyəti kənd yerlərində məşğulluğun artmasına, kiçik və orta fermer təsərrüfatlarının bazara çıxış imkanlarının genişlənməsinə şərait yaradır.Dövlət tərəfindən tətbiq edilən subsidiya mexanizmləri, güzəştli kreditlər və texniki təminat proqramları fermerlərin istehsal xərclərini azaldır, məhsuldarlığı isə artırır. Rəqəmsal kənd təsərrüfatı alətlərinin tətbiqi, torpaq və su resurslarından səmərəli istifadə imkanları da sahənin dayanıqlı inkişafına töhfə verir.

Bütün bunlar göstərir ki, aqrar sektor ölkə iqtisadiyyatının şaxələndirilməsi prosesində mühüm rol oynayır. Meyvə, tərəvəz və çay ixracında müşahidə olunan artım isə bu sahədə həyata keçirilən ardıcıl siyasətin real nəticəsidir. Mövcud dinamikanın qorunub saxlanılması və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi yaxın illərdə aqrar ixracın daha da artacağına əsas verir. Qarşıdakı dövrdə yeni bazarlara çıxış, ekoloji təmiz və sertifikatlı məhsul istehsalının genişləndirilməsi Azərbaycanın aqrar xəritədə mövqeyini daha da möhkəmləndirə bilər".

**Qlobal çağırışlara qarşı güclü iqtisadi model**

İqtisadçı qeyd edib ki, Azərbaycanda zamanında qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində saxlanılması və bu sahədə nəzərəçarpacaq uğurların qazanılması indiki qlobal çətinliklər şəraitində ölkənin inkişafa istiqamətlənməsini şərtləndirən əsas amillərdən biri qismində çıxış edir: "Məhz neftdənkənar iqtisadiyyatın inkişafının nəticəsidir ki, ölkə iqtisadiyyatının mənfi qlobal təsirlərə müqavimət gücü artır. Yeni şəraitdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında başlanan islahatlar yaxın perspektivdə ölkə iqtisadiyyatının neft amilindən asılılığını tamam aradan qaldırmağa hesablanıb. Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, aparılan islahatlar konseptual xarakter daşımaqla konkret hədəflərə istiqamətlənib.

Yeni dövrün tələbinə uyğun olaraq hazırda ölkəmizdə ixracın təşviqi sistemi işə salınıb. Ölkə başçısının qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı verdiyi qərarlara əsasən, Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi istiqamətində vacib tədbirlər həyata keçirilir. Ötən illər ərzində həyata keçirilən iqtisadi islahatlara paralel olaraq makroiqtisadi sabitlik qorunub saxlanılıb, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib. Eyni zamanda özəl bölmənin inkişafı üçün azad rəqabət və münbit investisiya mühiti yaradılıb".

# Aİ Şərq sərhəddinə dəstəyi artırır...

## Yeni "EastInvest" adlı investisiya platforması yaradılır

Avropa İttifaqı Rusiyanın Ukraynaya qarşı müharibəsinin təsirini kompensasiya etmək üçün şərq sərhədlərinə yaxın bölgələrə dəstəyi artıracaq. Bu məqsədlə, təsirlənmiş bölgələrdəki müəssisələr və yerli hakimiyyət orqanları üçün maliyyələşdirməyə çıxışı asanlaşdırmaq üçün "EastInvest" adlı investisiya platforması yaradılacaq. Bu barədə Aİ-nin Regional İnkişaf üzrə Komissarı Raffaele Fitto bildirib. "Şərq sərhəd bölgələri yalnız milli sərhədlər deyil, həm də Avropa sərhədləridir. Şərq sərhəd bölgələrinin gücləndirilməsi Avropanın təhlükəsizliyinə, sabitliyinə, birliyinə və rəqabət qabiliyyətinə strateji bir investisiyadır", - deyə AK-nın komissarı bildirib.

Yeni platforma 26 fevralda istifadəyə veriləcək. Bu proqram, növbəti Aİ büdcəsi çərçivəsində müdafiə və sərhəd təhlükəsizliyini gücləndirmək üçün çoxmilyard avroluq kreditlər, eləcə də Avropa fondlarından yardım təmin edəcək.

### 9 ölkəni əhatə edəcək proqram...

Təhlükəsizlik və iqtisadi artıma dəstək layihəsi Finlandiya, Polşa, Slovakiya, Macarıstan, Rumıniya, Bolqarıstan, Estoniya, Latviya və Litvanın sərhəd bölgələrini əhatə edəcək. Qeyd edək ki, bu ölkələrin hamısı ya Rusiya, Belarus və ya Ukrayna ilə həmsərhəddir, ya da Qara dəniz sahillərində yerləşir. Avropa Komissiyasının məlumatına görə, bu bölgələr Ukraynadakı müharibə səbəbindən əhali axını, iqtisadi artımın azalması və artan inflyasiyanın yaratdığı problemlərdən əziyyət çəkir. Bundan əlavə, təhlükəsizliyi gücləndirmək əlavə investisiyalara ehtiyac duyurlar. Brüssel bildirib ki, 2022-ci ildən bəri Aİ infrastrukturu təkmilləşdirmək, iqtisadi dayanıqlığı artırmaq, müdafiə qabiliyyətlərini inkişaf etdirmək, enerji və nəqliyyat infrastrukturu məsələlərini həll etmək və iş yerləri yaratmaq üçün şərq bölgələrinə siyasi, texniki və maliyyə dəstəyi göstərib. "Lakin, davam edən müharibə səbəbindən bu bölgələrdə iqtisadi və təhlükəsizlik şəraiti pisləşməyə davam etdiyindən, Aİnin əlavə dəstəyinə ehtiyac var", - deyə Avropa Komissiyası bildirib.

### Təhlükəsizlik prioriteti: Şərq Cəbhəsi Müşahidə proqramı, Dron Müdafiə Təşəbbüsü, Hava Qalxanı...

Qeyd edək ki, təklif olunan strategiya beş prioritet sahəni əhatə edir. Sənəddə ilkin prioritet kimi Şərq Cəbhəsi Müşahidə proqramı, Avropa Dron Müdafiə Təşəbbüsü, Avropa Hava Qalxanı və Avropa Kosmik Qalxanını əhatə edən təhlükəsizlik və dayanıqlıq yer alır. Avropa İttifaqı Rusiyanın Ukraynaya qarşı müharibəsinin yaratdığı geosiyasi riskləri nəzərə alaraq, xüsusilə şərq sərhədlərinə yaxın bölgələrdə müdafiə qabiliyyətinin artırılmasını prioritet hesab edir. Bu çərçivədə bir neçə mühüm təşəbbüs ön plana çıxarılır. Bunlardan biri qeyd olunduğu kimi, Şərq Cəbhəsi Müşahidə proqramıdır. Proqramın məqsədi sərhədyanı ərazilərdə erkən xəbərdarlıq mexanizmlərini gücləndirmək, hibrid təhdidlərin qarşısını vaxtında almaq və regional təhlükəsizlik koordinasiyasını artırmaqdır. Paralel olaraq, Avropa Dron Müdafiə Təşəbbüsü pilotsuz uçuş aparatlarından qaynaqlanan risklərə qarşı vahid müdafiə sisteminin qurulmasını nəzərdə tutur. Müasir müharibələrin xarakteri dəyişdiyi üçün dron hücumlarına qarşı effektiv cavab mexanizmləri strateji əhəmiyyət daşıyır.

Digər mühüm istiqamət Avropa Hava Qalxanı təşəbbüsüdür. Bu layihə üzv dövlətlərin hava hücumundan müdafiə sistemlərinin inteqrasiyasını və koordinasiyasını gücləndirməyə yönəlib. Məqsəd mümkün raket və hava hücumlarına qarşı kollektiv və daha effektiv müdafiə qurmaqdır. Bundan əlavə, Avropa Kosmik Qalxanı təşəbbüsü kosmik infrastrukturun - peyk rabitəsi, müşahidə və naviqasiya sistemlərinin - qorunmasını və dayanıqlılığının artırmağı hədəfləyir. Müasir təhlükəsizlik mühitində kosmik texnologiyalar həm hərbi, həm də mülki sahələr üçün kritik əhəmiyyət daşıyır.

Beləliklə, təhlükəsizlik prioriteti yalnız hərbi müdafiə ilə məhdudlaşmır, həm də informasiya, texnologiya və infrastruktur səviyyəsində kompleks dayanıqlılıq modelini nəzərdə tutur.



### İqtisadi prioritet: "EastInvest" maliyyəyə çıxışı asanlaşdırır

Növbəti prioritet isə iqtisadi artım və regional rifah məsələsidir. Maliyyəyə çıxışın asanlaşdırılmasına, o cümlədən maraqlı ölkələrin kredit və məsləhət dəstəyinə kömək edəcək "EastInvest" mexanizmi prosesi əlçatan edir - bu, Avropa İnvestisiya Bankı qrupunu, digər beynəlxalq maliyyə institutlarını və bir neçə milli və regional bankı bir araya gətirir. Bu prioritet əsasən müharibənin təsirinə məruz qalan şərq bölgələrində biznes mühitinin qorunmasına və inkişaf etdirilməsinə istiqamətlənib. "EastInvest" mexanizmi müəssisələr və yerli hakimiyyət orqanları üçün maliyyələşdirməyə çıxışı asanlaşdıracaq. Platforma kredit, zəmanət və məsləhət dəstəyi vasitəsilə investisiya layihələrinin reallaşdırılmasına kömək edəcək. Maliyyəyə çıxışın asanlaşdırılması xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün əhəmiyyətlidir. Çünki bu müəssisələr regional iqtisadiyyatın əsas dayaqlarından hesab olunur və məşğulluğun qorunmasında mühüm rol oynayır. Eyni zamanda, yerli hakimiyyət orqanlarının infrastruktur, enerji və sosial layihələr üçün vəsait tapmasını asanlaşdırmaq regionların uzunmüddətli dayanıqlı inkişafına töhfə verəcək. Nəticə etibarilə, iqtisadi prioritet yalnız maliyyə alətlərinin təqdim olunması ilə kifayətlənmir; o, həm də şərq sərhədlərinə yaxın bölgələrin Avropa iqtisadi məkanına daha sıx inteqrasiyasını və rifah səviyyəsinin yüksəldilməsini hədəfləyir. Bu yanaşma təhlükəsizlik və iqtisadi sabitlik arasında qarşılıqlı əlaqəni gücləndirərək ümumi regional sabitliyə xidmət edir.

### Enerji prioritetləri: Şimali-Baltik Hidrogen Dəhlizinin inkişafı

Yeni strategiya həm də "yerli güclərə güvənmək" amilinə söykənir. Prioritetin Baltikyanı ölkələrin elektrik kommunal xidmətlərinin Avropa şəbəkələri ilə inteqrasiyasına və Şimali-Baltik Hidrogen Dəhlizi kimi sərhədyanı hidrogen infrastrukturunun inkişafına yönəldilməsi gözlənilir. Qeyd edək ki, Şimal-Baltik Hidrogen Dəhlizi (North-Baltic Hydrogen Corridor) Baltik regionu ilə Mərkəzi Avropanı birləşdirəcək planlaşdırılan beynəlxalq hidrogen infrastruktur layihəsidir. Bu dəhliz yaşıl hidrogenin (bərpa olunan enerji mənbələrindən istehsal edilən hidrogen) boru kəmərləri vasitəsilə ölkələr arasında daşınmasını, kegional enerji bazarlarının inteqrasiyasını nəzərdə tutur. Layihədə Finlandiya, Estoniya, Latviya, Litva, Polşa, Almaniyanın iştirakı gözlənilir. Dəhlizin formalaşdırılmasında məqsəd Baltik ölkələrinin enerji sistemlərini Avropa ilə daha sıx inteqrasiya etmək, fosil yanacaqlardan asılılığı azaltmaq, sənaye və nəqliyyat sektorunda dekarbonizasiyanı sürətləndirmək, Avropada vahid hidrogen bazarının formalaşmasına töhfə verməkdir.

### Martda bəyannamə imzalanacaq...

Strategiyanın digər bir prioriteti rəqəmsal bağlantının təşviqi və nəqliyyat şəbəkələrinin, o cümlədən ikili təyinatlı yolların, dəmir yollarının və liman infrastrukturunun, eləcə də Ukrayna və Moldova ilə sərhədyanı əlaqələrin modernləşdirilməsidir. Bundan əlavə, Avropa Komissiyası izah edir ki, sərhəd bölgələrini gücləndirmək planı əhalinin azalması və işçi qüvvəsi çatışmazlığı problemlərinin həllini hədəfləyir. Bunun üçün təhsildən məşğulluğa proqramları və Medianın Davamlılığı və Dezinformasiyaya Qarşı Mübarizə Proqramları çərçivəsində yerli icmaların gücləndirilməsi nəzərdə tutulur.

Vurğulayaq ki, fevralın 26-da Avropa Komissiyası Aİ-nin Rusiya, Belarus və Ukrayna ilə həmsərhəd olan şərq bölgələrini dəstəkləmək üçün yeni strategiya üzrə yüksək səviyyəli siyasi dialoq keçirəcək. Mart ayında keçiriləcək iclasda isə maliyyə qurumları "EastInvest" mexanizminin işə salınması barədə bəyannamə imzalayacaqlar. Bəyannamənin məqsədi adıçəkilən regionda iqtisadi artımı təşviq etmək və onların maliyyəyə çıxışını yaxşılaşdırmaq məqsədi daşıyır. Kreditlər Avropa İnvestisiya Bankı və digər beynəlxalq maliyyə qurumları, eləcə də bir neçə milli və regional inkişaf bankı tərəfindən təmin ediləcək. Aİ həmçinin bu investisiya üçün Dünya Bankı ilə əməkdaşlığı planlaşdırır.

**P.İSMAYILOV**

Bizim müsahib

# Emosiya, temperament...

## Firdovsi Atakişiyev: Oynayacağım rol daxilimdəki hissləri oyatmalıdır



Firdovsi Atakişiyev illərdir səhnədə müxtəlif obrazlara həyat verən aktyorlardandır. Söhbətimiz əsnasında aktyor sənətə necə gəldiyindən, səhnədə qazandığı təcrübələrdən və gələcək planlarından danışdı. Firdovsi Atakişiyev ilə olan müsahibəmizi təqdim edirik.

**- Bu sahəyə gəlişinizi necə xatırlayırsınız?**

- Mən dil açandan mahnı oxumağa başlamışam. Hətta kiçik yaşlarımdan qonşuları və bir çox aktyorları yamsılayırdım. Ailəm məni gələcəkdə komik aktyor kimi görürdü. Hamı düşünürdü ki, bu bacarıq məndə var. Lakin böyüdükcə xarakterim və simam dəyişdi, özümü daha çox ciddi obrazlarda gördüm.

**- Aktyorluq peşəsi insanın şəxsi həyatına necə təsir göstərir?**

- Sənətimi heç vaxt həyatımdan ayırmamışam. Lakin bir müddət həyatımda müəyyən hadisələr baş verdi və sənəti kənara qoyaraq ailəmi seçdim. Bu, həyat yoldaşımın xəstəliyi ilə bağlı idi. Həmin dövrdə təkcə sənətdən deyil, bir çox şeydən uzaqlaşdım. Amma sənətim məndən incimədi. O ağır günləri yaşadıqdan sonra yenidən qayıtdım və aktyorluq sənəti mənə yenidən qucaq açdı.

**- Həyat yoldaşınızdan söz düşmüşkən, İranə Tağızadənin aktyor olmağınızda hansı rolu olub?**

- Biz ailəmizi qorumaq, övladımızı böyütməklə yanaşı, sənətimizi də birgə yaşadırdıq. Məni aktyor kimi çox bəyənir və dəstəkləyirdi. İranə xanım çox istedadlı rejissor idi və sənətə bağlı ondan çox şey öyrəndim. Ondan sonra karyeramda sanki rejissora ehtiyac qalmadı - mənə möhkəm bir baza qoydu və getdi. Qayınatam Tofiq Tağızadə ilə sənət barədə çox müzakirələr aparırdıq. Müəllimim Nəsir Sadıqzadə də son dərəcə görkəmli pedaqoq idi. Yolumun bu insanlarla kəsişməsi baxımından özümü şanslı aktyor hesab edirəm.

**- Yoldaşınız, siz, qaynatanız - hamınız sənət adamı olmusunuz. Övladınızın bu sahəyə marağı olmadı, yoxsa siz istəmədiniz?**

- O, ədəbiyyatı, kino sahəsini və tarixi çox yaxşı bilir, lakin tamam başqa sahədə çalışır. Bu sənəti özü seçmədi. Kiçik yaşlarında "Köpək" filmində bir rola çəkildi, ondan sonra davam etdirmək istəmədi.

**- İndiki Firdovsi Atakişiyev 20 il əvvəlki Firdovsiyə nə öyrədə bilərdi?**

- Yalnız həyat təcrübəsini. Mən həmişə Tanrı ilə ruhən ünsiyyətdə olmuşam və bu mənə güclü intuisiya verib. Uşaqlıqdan belə düşünmüşəm ki, bir iş məndə alınmırsa, deməli, Allah mənə ondan daha yaxşısını verib. Həyatım boyu buna şahid olmuşam və inanıram ki, belə də davam edəcək.

**- Filmdə rol seçərkən hansı meyarlara üstünlük verirsiniz?**

- Emosiya, temperament... Oynayacağım rol daxilimdəki hissləri oyatmalıdır.

**- Yaxın günlərdə yeni layihəniz işıq üzü görəcək. İstəyirəm bu barədə danışasız.**

- Bəli, AzTV-də çoxdan gözlənilən "Tarixin oyunu" layihəsi efirə çıxıb. Bu, intellektual insanların meydanıdır. Layihənin əsas məqsədi Azərbaycan tarixinin təbliğidir. Proqramda həm tarixi irsimiz, həm də müasir tariximizlə bağlı suallar yer alacaq.

**- Hazırda fəaliyyət göstərən gənc aktyorlardan razısınızmı?**

- Mən hər şeydən razıyam. Yaxın zamanda istedadlı rejissor Elvin Rüstəmzadə ilə birgə işimiz olacaq. Həmin layihədə məni maraqlı bir obraz gözləyir və inanıram ki, tamaşaçılar tərəfindən də xoş qarşılanacaq.

Eyni zamanda, yaxın günlərdə Oskar Uayldın "Dorian Qreyin portreti" tamaşası təqdim olunacaq. Bu əsər gənclik illərimdən sevdiyim əsərlərdən biridir. Layihə artıq tamaşaçı rəğbətini qazanıb. Hər müğənni və ya aktyor Heydər Əliyev Sarayında anşlaq yarada bilmir. Lakin biz teatr aktyorları olaraq ardıcıl iki tamaşada bu sevgini və ehtiramı gördük. Tamaşadan sonra yarım saatdan çox tamaşaçılarla şəkil çəkdirdik. Bu sevgi bizə böyük motivasiya verir.

Mart ayında isə Tolstoyun "Anna Karenina" əsəri səhnəyə qoyulacaq. Hər iki tamaşanın rejissoru əslən Makedoniyadan olan Corc Rizeskadır. Belə istedadlı gənclərlə işləmək mənə böyük zövq verir.

**- Aparıcılıq, teatr, yoxsa film - hansı sahə sizə daha yaxındır?**

- Hər üçü. Çünki hər birinə böyük məsuliyyətlə yanaşıram. Bu məsuliyyət sənətə olan sevgimdən və hörmətimdən irəli gəlir.

**- Elə rol olubmu ki, oynamaq istəmisiniz, amma alınmayıb?**

- Heç vaxt heç bir obrazın həsrətini çəkməmişəm. Tale elə gətirib ki, ana xətt olan rolları oynamaq mənə nəsib olub. Məsələn, H. Cavidin "İblis" əsərində Vasif, Şekspirin "On ikinci gecə"sində Orsino, Tennessi Uilyamsın "Arzu tramvayı"nda Stenli Kovalski, Dostoyevskinin "Karamazov qardaşları"nda Dmitri Karamazov, "Sənətkarın taleyi" tamaşasında Hüseyn Ərəblinski, Puşkinin "Kapitan qızı"nda Yemelyan Puqaçov və s. misal gətirə bilərəm.

**- Firdovsi Atakişiyev hansı halda obrazdan imtina edə bilər?**

- Əgər rol məndə emosiya yaratmırsa, səhnədə məni tər basmırsa, tamaşadan sonra təngnəfəs olmuramsa, deməli, o obraza görə səhnəyə çıxmağa dəyməz.

**- Bu sahəyə gəlmək istəyən gənclərə nə tövsiyə edərdiz?**

- Səbrli olsunlar və nəfsinə hakim olmağı bacarsınlar. Bizim sənət o qədər də gəlirli sahə deyil, amma həyat maddiyyat üzərində qurulub. Maddiyyatla mənəviyyat arasındakı mübarizədə qalib gələ bilsələr, sənətdə qala biləcəklər.

**Söhbətləşdi: Havar Şəfiyeva**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 2-ci günün duası

**Allahummə qərribni fihi ila mərzatik. Və cənnibni fihi min səxətikə və nəqimatik. Və vəffiqni fihi liqiraəti ayatik. Birəhmətikə ya ərhəmər-rahimin.**

**Tərcüməsi:**

**İlahi, bu gün məni öz razılığına yaxınlaşdır, qəzəb və intiqamından uzaq et. Sənin ayələrini (Qur-ani) oxumaqda mənə müvəffəqiyyət ver. Sonsuz mərhəmətinə And verirəm, ey rəhmlilərin ən rəhmlisi!**

# Bərabər dünya üçün...

## Ədalət hər bir insanın vicdanında yaşayır

Ədalət anlayışı müxtəlif mədəniyyətlərdə və hüquq sistemlərində fərqli izah edilsə də, onun mahiyyətində iki əsas prinsip dayanır: bərabərlik və haqqın qorunması. Müasir dövrdə ədalət yalnız məhkəmə zallarında axtarılmır. O, əmək bazarında bərabər imkanlarda, təhsildə, gender balansında, sosial müdafiə sistemində də özünü göstərir. Hansı cəmiyyətdə sosial ədalət mövcuddursa, o cəmiyyətdə insan amilinə diqqət və qayğı da böyükdür. Təbii ki, sivil bir dünyada yaşamış olsaq da, sosial ədalət prinsipinə bir çox ölkədə əməl olunmur. Belə ki, dünyanın bir qismi üçün bu anlayış əlçatmazdır.

Demokratik dəyərlərə malik, mütərəqqi dövlətlərdə sosial ədalətə təsadüf olunur. Hüquq bərabərliyinin və insan hüquqlarının pozulması isə cəmiyyətdə xoşagəlməz hallarla insanları üz-üzə qoyur.

**Qanunilik və ədalətlilik eyni anlayışdır**

Görkəmli yunan filosofu Sokrat ədaləti “sözə sədaqət” formulunda qiymətləndirərək qeyd edirdi ki, qanunilik və ədalətlilik eyni şeylərdir. Bəli, ədalətin mövcudluğunun əsas şərti cəmiyyətdə təhlükəsizliyin və asayişin təmin edilməsidir. Sokrat ədalət məfhumu haqqındakı fikrinin qısa izahını belə verir: “Ədalət hər bir kəsin öz işi ilə məşğul olması və ona aidiyyəti olmayan məsələlərə qarışmamasıdır”. Bu da özlüyündə maraqlı bir tarixi yanaşmadır.



**Ən yüksək fəzilətlərdən biri...**

Qədim yunan filosofu Platon da ədaləti ictimai həyatın əsl prinsipi hesab edirdi. Onun üçün ədalət yaxşılıq, həmçinin qanunlara tabe olmaq üçün istək, arzu demək idi. O, yazırdı ki, ədalət ən yüksək fəzilətlərdən biridir.

**İctimai həyatın məntiqiliyi**

Konkret reallığa əsaslanan ədalətin ən mühüm tərifi isə Aristotel tərəfindən verilib. Aristotelə görə ədalət bərabərliyə əsaslanmalı və ictimai həyatın məntiqiliyi olmalıdır. Beləliklə, ədalət hər kəsə haqq etdiyini onun layiq olduğu dərəcədə verməkdir. O, ədalət anlayışının konkret tərifini belə verir: “Ədalət insanlara düzgün, ədalətli olanı etməyə və doğru, ədalətli şeylər istəməyə imkan verən xasiyyətdir”.

**Həmrəylik və bərabər imkanlar üçün...**

Yeri gəlmişkən, fevralın 20-si Dünya Sosial Ədalət Günüdür. Bu əlamətdar gün BMT-nin Baş Məclisi tərəfindən dünya ictimaiyyətinin yoxsulluqla mübarizə işində səylərini artırmaq və hər kəs üçün iş yerləri, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədi ilə yaradılıb. Müasir dünya cəmiyyətlər daxilində və cəmiyyətlərarası həmrəylik, harmoniya və bərabər imkanlar aşılamaq üçün yoxsulluq, ayrı-seçkilik və işsizliklə məşğul olmağın əhəmiyyətini dərk edir. Daha sabit, ədalətli və təhlükəsiz dünya qurmaqda sosial ədalətin vacibliyi əsas məsələlərdəndir. Hər kəs üçün sosial ədalətə nail olmaq naminə BMT-nin əsas məqsədi inkişaf və insan ləyaqətini yaymaqdır. 2009-cu ildə fəaliyyətə başlamış Sosial Müdafiə Təşəbbüs Platforması hər kəs üçün əsas sosial zəmanət əldə etmək naminə ümumi prioritetlər müəyyənləşdirən bir BMT sistemidir.

**Azərbaycan dünya üçün nümunədir**

Bütün dünya ölkələri ilə yanaşı, Azərbaycanda da Sosial Ədalət günü qeyd olunur. Sosial ədalətə nail olmaq üçün ölkəmizdə həyata keçirilən islahatları xüsusilə vurğulamalıyıq. Həyatımızın bütün sferalarını əhatə edən islahatlar öz nəticəsini verib. Dünya birliyinə sürətlə inteqrasiya olunaraq demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla regionda nüfuz sahibinə çevrilən Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər ilk növbədə vətəndaşların mənafeyinə xidmət edir. Ölkəmizin maliyyə imkanlarının güclənməsi regionların sosial-iqtisadi inkişafına, eləcə də insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub.

Sosial Ədalət Günü bizə xatırladır ki, ədalət abstrakt anlayış deyil, gündəlik həyatımızda qəbul etdiyimiz qərarlarda, başqasının haqqına göstərdiyimiz hörmətdə və cəmiyyətə münasibətimizdə təcəssüm edir. Ədalətli dünya arzusu yalnız beynəlxalq tribunalarda deyil, hər bir insanın vicdanında başlayır. Sosial ədalətə doğru atılan hər bir addım - istər kiçik, istər böyük - daha bərabər və humanist gələcəyə xidmət edir...

*Yeganə BAYRAMOVA*

*İdman*

## Avarçəkmə üzrə Azərbaycan birinciliyi keçiriləcək




Fevralın 27-28-də Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı əsasında avarçəkmənin akademik, kayak və kanoe növlərində Azərbaycan birinciliyi keçiriləcək.

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından (AKAF) AZƏRTAC-a verilən məlumata görə, Mingəçevirdə, “Kür” Olimpiya Tədris-İdman Mərkəzində baş tutacaq yarış handikap sistemi üzrə olacaq. İdmançılar fərdi olaraq birnəfərlik qayıqlarla akademik avarçəkmədə 4000 metr, kayak və kanoedə isə 2000 metr məsafə qət edəcəklər. Qaliblər vaxt göstəricilərinə əsasən müəyyənləşəcək.

Azərbaycan birinciliyində Bakı və Mingəçevirdən 2008-2013-cü il təvəllüdlü ümumilikdə 80 idmançı mübarizə aparacaq. Qaliblər diplom və medallarla mükafatlandırılacaq. Fərqlənən idmançılar Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümünə həsr ediləcək “Prezident Kuboku-2026” və digər beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcək komandanın heyətinə cəlb olunacaqlar.

## Xizəkçilərimiz beynəlxalq turnirdə fərqləniblər

Türk Dövlətləri Təşkilatının dəstəyi və Türkdilli Dövlətlərin Xizək Kurortları İttifaqının birgə təşəbbüsü ilə Türk Dövlətlərinin Xizək Kuboku təşkil olunub.

Azərbaycan Qış İdman Növləri Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Türkiyənin Uludağ Dağ Kurortunda keçirilən yarışda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstandan olan 100-ə yaxın xizək həvəskarı iştirak edib.



Sayca 2-ci dəfə təşkil olunan kubokda əvvəlcədən qeydiyyatdan keçən 18-25, 26-45, 46+ yaş kateqoriyasında kişi və qadın idmançılar xizək idmanının nəhəng slalom növündə birincilik uğrunda mübarizə aparıblar.

Gərgin keçən yarışda 18-25 yaş kateqoriyasında qızlar arasında Sıla Kara (Türkiyə), oğlanlarda isə Aleksandr Çvetkov (Qazaxıstan) birinci yerə layiq görülüb. İkinci yerin sahibi Mahmut Kazanc (Türkiyə) olub. Muhammadali Asanov 3-cü yerdə qərarlaşıb.

26-45 yaş kateqoriyasında qızlar arasında Nataliya Lapşina (Qazaxıstan) birinci, Elvira Zakarayeva (Azərbaycan) ikinci, Buse Terim (Türkiyə) üçüncü olub. Oğlanların yarışında Ceyhun Balametov (Azərbaycan) 1-ci, Metehan Taşdemir (Türkiyə) 2-ci, Talip Gülle (Türkiyə) 3-cü yeri tutub.

46+ yaş kateqoriyasında Ali Akgül (Türkiyə) ali kürsüdə ilk yerdə qərarlaşıb. 2-ci və 3-cü yerləri isə Kamil Şar (Türkiyə) və Ömer Saraçer (Türkiyə) bölüşüblər.

Yarışın yekununda qaliblər kubok və medallarla təltif olunub, iştirakçılara müxtəlif həvəsləndirici hədiyyələr təqdim edilib.

Türk Dövlətlərinin Xizək Kubokunun keçirilməsinin əsas məqsədi türk xalqları arasında qış idman növləri sahəsində qarşılıqlı əməkdaşlığı gücləndirmək, birgə yarışların keçirilməsini təşviq etmək və xizək idman növünü təbliğ etməkdir.

Qeyd edək ki, növbəti Türk Dövlətlərinin Xizək Kubokunun ev sahibliyinə Qazaxıstan və Türkiyə öz namizədliyini irəli sürüb.

## Yuxu apnesi uşaqlarda virus riskini artırır

İsrail və ABŞ alimlərinin apardığı genişmiqyaslı araşdırma göstərib ki, obstruktiv yuxu apnesi (OSA) diaqnozu qoyulmuş uşaqlarda qripə yoluxma riski təxminən iki dəfə, COVID-19-a yoluxma riski isə təxminən 2,5 dəfə yüksəkdir.

AZƏRTAC İsrailin “TPS-IL” informasiya agentliyinə istinadla xəbər verir ki, beş il ərzində 2-18 yaşarası bir milyondan çox uşağın tibbi qeydlərinin təhlilinə əsaslanan tədqiqatda OSA olan uşaqlarda pnevmoniya kimi ağırlaşmaların da daha çox müşahidə olunduğu bildirilib.



Tədqiqat, həmçinin göstərib ki, badamcıq və adenoidlərin çıxarılması əməliyyatı (adenotonsillektomiya) keçirmiş uşaqlarda belə risk yüksək olaraq qalır. Alimlər yuxu apnesinin ciddi virus infeksiyaları üçün risk göstəricisi kimi qiymətləndirilməli olduğunu və bu uşaqlara qarşı profilaktik tədbirlərin, o cümlədən peyvəndlərin prioritetləşdirilməsinin vacibliyini vurğulayıblar.

Araşdırmaya Yerusəlim Yəhudi Universitetinin Tibb fakültəsinin alimləri rəhbərlik edib. Nəticələr “Journal of Clinical Sleep Medicine” nəşrində dərc olunub.

## Azərbaycanın gənc idmançısı Avrasiya çempionatının qalibi olub

Laçın şəhərindən olan keçmiş məcburi köçkün ailəsinin üzvü 29 nömrəli Laçın tam orta məktəbinin 9-cu sinif şagirdi Məhəmməd Rüstəmli beynəlxalq arenada növbəti böyük uğura imza atıb.



AZƏRTAC xəbər verir ki, gənc idmançı Beynəlxalq Həvəskar Qreplinq Assosiasiyası (AİGA) tərəfindən keçirilən Avrasiya çempionatında qızıl medal qazanıb.

30-dan çox ölkənin və 90-dan artıq idman akademiyasının qatıldığı nüfuzlu turnirdə o, həm fərdi, həm də komanda hesabında fərqlənərək 1-ci yeri tutub. Məhəmməd Rüstəmlinin yüksək hazırlıq səviyyəsi AİGA-nın rəsmi platformalarında nümunəvi iştirak kimi xüsusi vurğulanıb.

Uzun illər çətin şəraitdə yaşamış Rüstəmlilər ailəsi dövlət tərəfindən həyata keçirilən sosial proqramlar çərçivəsində “Qobu Park-1” yaşayış kompleksində müasir və rahat mənzillə təmin olunub. Yaşayış kompleksindəki geniş idman infrastrukturu Məhəmməd kimi gənclərin peşəkar idmanla məşğul olmasına real imkanlar yaradıb.

Gənc çempion doğma Laçın şəhərinin işğaldan azad olunmasını böyük qürurla qarşıladığını bildirib: “Əldə etdiyim uğurlara, bizə göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdaram. Əsas arzum tezliklə doğma Laçına qayıtmaq, orada idmanın inkişafına töhfə vermək və gənclərin sağlam həyat tərzini təşviq etməkdir”.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4855**
**Sifariş: 247**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova